# Bakı Fond Birjası Rüblük Hesabat



**Mart 2020**

BAKI FOND BİRJASI

*Mühüm Hadisələr*

# 2020 MART

## Yenilənmiş Listinq və Ticarət qaydalarının qəbulu

Bakı Fobd Birjasının Listinq Qaydalarının, o cümlədən Ticarət Qaydalarının yeni layihəsi 11 mart 2020-ci il tarixində qüvvəyə minmişdir. Listinq Qaydalarına edilən dəyişikliklər nəticəsində beynəlxalq təcrübəyə uyğun bazar seqmentlərinin formalaşdırılması və listinqə daxil edilmə proseslərinin optimallaşdırılması təmin edilmişdir. Belə ki, səhm və istiqrazların listinqi üzrə 2 seqment müəyyən edilmiş (əsas və standart bazar seqmentləri), eyni zamanda alternativ bazar seqmenti ləğv edilmişdir. Bakı Fond Birjası ilə listinq müqaviləsi olmayan və qiymətli kağızları aktiv ticarət olunmayan emitentlər delistinq edilərək listinqdən kənarlaşdırılmış və listinqdə yalnız likvid qiymətli kağızlar saxlanmışdır.

## "BTB Bank" istiqrazlarının yerləşdirilməsi

"BTB Bank"ASC-nin AZ2002009440 ISIN-li, 2.000.000 AZN həcmində,1 il tədavül müddətli istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilmişdir. İstiqrazların tədavül müddəti 1 (bir) təqvim ilidir (365 gün) və illik faiz dərəcəsi 9% olmaqla, yerləşdiyi tarixdən etibarən dövri olaraq hər rübün son iş günü ödəniləcəkdir. İstiqrazların əsas məbləğinin ödəmə tarixi 5 mart 2021-ci ildir. Qeyd edək ki, BTB Bankın istiqrazları standart bazar seqmentində listinqə daxil edilmişdir və yerləşdirmə üzrə anderrayter BTB Kapital investisiya şirkəti olmuşdur.

## Birinci rüb ərzində Repo əməliyyatları üzrə xüsusi artım tempi

2020-ci ilin ilk 3 ayı ərzində repo əməliyyatlarının ümumi həcmi 422,461,934 manat təşkil etmişdir ki bu da ötən ilin birinci rübü ilə müqayisədə 4.17 dəfə artım deməkdir. Repo əməliyyatları üzrə Paşa Kapital, Unicapital və Azfinance investisiya şirkətləri xüsusi aktivlik göstərir. Belə ki, qeyd olunan investisiya şirkətləri repo əməliyyatları üzrə ticarət həcminin böyüklüyünə görə ilk üçlükdə yer tuturlar.

## Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım

Bakı Fond Birjası Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2020-ci il 19 mart tarixli fərmanı əsasında ölkəmizdə koronavirusun yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək üçün yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım vəsaiti ayırıb. Bakı Fond Birjası korporativ sosial məsuliyyətlilik daxilində yardımının əsas məqsədi koronavirus (COVİD-19) pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində sosial həmrəyliy nümayiş etdirmək və ölkə iqtisadiyyatına təhlükəli xəstəliklə mübarizədə öz töhfəsini verməkdir.

*Yanvar-Mart 2020*

# AYLIQ STATISTIKA

Bakı Fond Birjasında 2020-ci ilin yanvar-mart aylarında qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 2,076,041,404 manat təşkil etmişdir. 2019-cu ilin analoji dövrü üzrə əməliyyatların həcmi 3,854,512,648 olmuşdur. Nəticə olaraq, 2020-ci ilin yanvar-mart ayları üzrə dövlət qiymətli kağızların (Mərkəzi Bank və Maliyyə Nazirliyi) ilkin bazarında yerləşdirmələrin həcmində ötən ilə nəzərən azalma müşahidə olumasına baxmayaraq, ümumi təkrar bazar üzrə ticarət həcmində 375%, repo əməliyyatları üzrə isə 318% böyümə qeydə alınmışdır.




## Ötən ilə nəzərən

**318 %**
*Repo əməliyyatları*

**375%**
*Ümumi təkrar bazar*

**83%**
*DQK ilkin bazar*

*KQK- Korporativ Qiymətli Kağızlar
*MN - Maliyyə Nazirliyi
*DQK- Dövlət Qiymətli Kağızları

## 2020 Mart ayı üzrə

**Ümumi ticarət həcmi**
**980,276,310**

**Aylıq əqdlərin sayı**
**366**

**Aylıq ticarət günlərinin sayı**
**16**

*Bakı Fond Birjasında keçirilən əməliyyatların ümumi həcmi*

# 2020 YANVAR-MART

| Bazarlar / Əməliyyatlar | 31.03.2020-ci il tarixinə | | 31.03.2019-cu il tarixinə | |
|---|---|---|---|---|
| | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı |
| **1. Dövlət qiymətli kağızları** | **887,902,489** | **274** | **3,671,751,529** | **466** |
| **1.1. İlkin bazar** | **595,501,069** | **126** | **3,514,830,748** | **351** |
| Dövlət istiqrazları (AR Maliyyə Nazirliyi) | 290,411,029 | 68 | 151,753,827 | 63 |
| ARMB* qiymətli kağızları | 305,090,040 | 58 | 3,363,076,921 | 288 |
| **1.2. Təkrar bazar** | **292,401,420** | **148** | **156,920,781** | **115** |
| Dövlət istiqrazları | 104,006,867 | 124 | 75,685,890 | 99 |
| ARMB qiymətli kağızları | 188,394,553 | 24 | 81,234,891 | 16 |
| **2. Korporativ qiymətli kağızlar** | **765,676,981** | **643** | **81,681,290** | **534** |
| **2.1. İlkin bazar** | **22,000,000** | **4** | **20,485,914** | **8** |
| 2.1.1. Səhmlər | - | - | 300,000 | 2 |
| 2.1.2. İstiqrazlar | 22,000,000 | 4 | 20,185,914 | 6 |
| - İpoteka istiqrazları | 20,000,000 | 1 | 20,185,914 | 6 |
| - Digər istiqrazlar | 2,000,000 | 3 | 0 | 0 |
| **2.2. Təkrar bazar** | **743,676,981** | **639** | **61,195,376** | **526** |
| 2.2.1. Səhmlər | 6,719,050 | 496 | 384,025 | 398 |
| 2.2.2. İstiqrazlar | 736,957,931 | 143 | 60,811,351 | 128 |
| - İpoteka istiqrazları | 728,735,862 | 41 | 48,138,228 | 3 |
| - Digər istiqrazlar | 8,222,069 | 102 | 12,673,123 | 125 |
| **3. Repo əməliyyatları** | **422,461,934** | **232** | **101,079,830** | **88** |
| Dövlət istiqrazları üzrə | 374,559,691 | 210 | 92,632,537 | 82 |
| ARMB qiymətli kağızları üzrə | 11,608,691 | 4 | 3,835,354 | 2 |
| Korporativ qiymətli kağızlar üzrə | 36,293,552 | 18 | 4,611,939 | 4 |
| **Cəmi (1+2+3)** | **2,076,041,404** | **1,149** | **3,854,512,648** | **1,088** |
| - o cümlədən: ilkin bazar | **617,501,069** | **130** | **3,535,316,662** | **359** |
| - o cümlədən: təkrar bazar | **1,036,078,401** | **787** | **218,116,157** | **641** |

# Birja üzvlərinin yanvar-mart ayları üzrə renkinqi

## İnvestisiya şirkətləri

| Qiymətli kağızın növünə görə | "AzFinance" İ.Ş QSC | "BTB Kapital İ.Ş" ASC | "İnvest-AZ İ.Ş" QSC | "Paşa Kapital İ.Ş" QSC | "PSG Kapital İ.Ş" QSC | "Unicapital İ.Ş" ASC | "Xalq Kapital İ.Ş" QSC |
|---|---|---|---|---|---|---|---|
| **ARMB qiymətli kağızları** | 303,077,704 | 34,431,374 | 84,418,936 | 223,998,578 | 999,977 | 9,010,183 | 8,333,278 |
| **Dövlət istiqrazları** | 145,916,346 | 26,594,106 | 4,143,896 | 542,462,720 | 7,559,030 | 54,590,034 | 7,569,659 |
| **Korporativ istiqrazlar** | 115,068,518 | 25,418,258 | 975,133 | 613,644,597 | 7,729,942 | 4,156,311 | 22,187,240 |
| **Səhm** | 13,500 | 1,304,673 | 11,804,776 | - | 100,296 | - | 214,857 |
| **Repo** | 11,331,763 | 7,057,743 | 4,498,227 | 701,398,662 | 10,877,930 | 109,759,543 | - |
| **Cəmi əməliyyatların həcmi** | 575,407,831 | 94,806,154 | 105,840,968 | 2,081,504,556 | 27,267,175 | 177,516,072 | 38,305,034 |
| **Cəmi əməliyyatların sayı** | 278 | 74 | 699 | 518 | 270 | 128 | 227 |

